**Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini, gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz...**

**Heydər Əliyev**



# Hərbi-vətənpərvərlik tərbiyəsi

## Bu məsələ məktəblərimizdə öz həllini necə tapır?!

**Zəngin tarixə malik Azərbaycan ta qədimdən bu günə kimi qərbdən şərqə, cənubdan şimala gedən, Avropa və Asiyanı əlaqələndirən ticarət yolları üzərində yerləşmişdir. Bu da ölkəmizin ticarət əlaqələrinin genişlənməsinə, respublikamızın inkişafına güclü təsir göstərmişdir.**

Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir. Burada müxtəlif dillərdə danışan çox sayda millətlərin yaşamasına baxmayaraq, qədim zamanlardan Azərbaycanın yerli-köklü və əsas əhalisi türkdillidir.

Hazırda dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Xalqımızın minilliklər ərzində yaratdığı dövlətçilik, idarəçilik ənənələri, mədəniyyəti bəşər tarixinə layiqli töhfə olmuşdur. Hələ qədim dövrlərdə Azərbaycan ərazisində formalaşmış imperiyalar: Manna, Midiya, Atropatena qonşu dövlətlər arasında böyük nüfuza malik olmuş, torpaqları geniş əraziləri əhatə etmişdir.

Orta əsrlərdə yaranan və sürətlə inkişaf edən Atabəylər, Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu dövlətləri Azərbaycanın dövlətçilik ənənələrini davam etdirmişdir. XVI əsr Azərbaycan tarixi Səfəvi dövləti kimi qüdrətli bir dövlətin yaranması ilə əlamətdardır.

Bütün dediklərimizə rəğmən, hər dövrdə xalqın mübarizə ruhu, vətənpərvərlik eşqi hər zaman önəmli olmuşdur. Xalqımızın qəhrəmanlıqlarla dolu azadlıq tarixi hər zaman uşaqlarımızın yaddaşına həkk edilməlidir.

Bu işdə məktəblərdə aparılan vətənpərvərlik tərbiyəsinin böyük əhəmiyyəti vardır. Bu tərbiyə müxtəlif istiqamətlərdə aşılanır. İlk növbədə, bu işdə Azərbaycan dövləti, onun tarixi, xalqımızın keşməkeşli mübarizə tarixi ön plana çəkilir.

Tarixboyu Azərbaycan dövlətləri yüksəliş və tənəzzül dövrləri keçirmiş, daxili parçalanmalara, xarici işğallara məruz qalmışlar. Azərbaycan həmişə qonşularla sülhsevər, dinc münasibətlər saxlamışdır. Lakin bəzi qonşular, xüsusilə Qərbi Azərbaycanda məskunlaşmış ermənilər Azərbaycan torpaqlarına daima göz dikmiş, fürsət düşdükcə müəyyən əraziləri işğal etmişlər.

Orta məktəblərin I sinfindən başlayaraq şagirdləri vətənə sevgi, məhəbbət ruhunda tərbiyə etmək üçün bütün vasitələrdən istifadə edilir. İlk növbədə, şagirdlərə vətənimiz Azərbaycanı və xalqımızı tanıtmalıyıq.

Onlara vətənpərvərlik hisslərini aşılamaq üçün Azərbaycanın tarixinin qəhrəmanlıq səhifələrini, işğalçılara qarşı aparılan mübarizələri, vətən uğrunda canından keçənləri, şəhidlik nümunələrini, bu günümüzə necə çətinliklə gəlib çıxdığımızı, Azərbaycanın keşməkeşli tarixini bugünkü müstəqilliyimizin heç də birdən-birə qazanılmadığını şagirdlərə mərhələ-mərhələ aşılamalıyıq.

Biz Azərbaycan övladlarının vətənpərvər böyüməsi üçün onlara Tomrisdən danışmalıyıq. O Tomrisdən ki, fars şahı Kirin başını qan dolu tuluğa atmış və "sən qan üçün susamışdın, indi al, iç bu qandan doyunca" demişdir. Bu bir türk qadınının torpaq uğrunda, vətən uğrunda vətənpərvərlik, igidlik nümunəsidir.

Millətin bir millət kimi formalaşıb özünü təsdiq etməsi üçün fərdlərin özünüdərk, milli mənlik hissləri çox güclü olmalıdır. Dahi M.K.Atatürk demişdir: "Milli mənliyi olmayan millətlər başqa millətlərin qulu olur".

Vətənpərvərlik hissləri orta məktəblərdə mənəvi-psixoloji hazırlığa, xalqın tarixi irsinə və dünyəvi dəyərlərə söykənməlidir. Mənəvi-psixoloji cəhət burada üstünlük təşkil edir. Bu yönümdə şagirdlərdə dəyanət, lazım gələrsə müəyyən döyüş tapşırığına hazır olmaq, gərgin və təhlükəli şəraitdə fədakarlıq göstərmək, vətənpərvərlik əqidəsinə sadiq qalmaq, təmkinli, dözümlü olmaq qabiliyyətinin formalaşması nəzərdə tutulur.

Şagirdlərə aşılanmalıdır ki, vətənpərvərlik ruhunda tərbiyə olunmuş xalq psixoloji cəhətdən bütün çətinliklərə sinə gərir və sonda mütləq qalib gəlir. Dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev tərəfindən 2002-ci il mayın 6-da imzalanmış "Gənclər siyasəti haqqında" Qanunda deyilir: "Gənclər vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalıdır".

Milli vətənpərvərlik tərbiyəsinin əsas tərkib hissələri və istiqamətləri şagirdlər tərəfindən öyrənilməli, gələcək nəsil kimi onların düzgün istiqamətlənməsinə yönəldilməlidir. Hətta uşaq vaxtlarından belə hər bir uşaq vətənin müdafiəsinə hazır olmalıdır. Bunu onlara tarixi faktlarla aşılamaq mümkündür.

Qədim Manna dövlətinin torpaqlarını hər zaman ermənilər işğal etmək istəyindən yan keçməyiblər. Şagirdlər bilməlidirlər ki, vətənpərvərlik mənəvi-əxlaqi keyfiyyətdir. Şagirdlərdə Azərbaycan xalqının dövlətçilik ənənələrinin, milli vətənpərvərlik hisslərinin və fikrinin formalaşması və inkişafında Nizami Gəncəvi, Uzun Həsən, Şah İsmayıl Xətai, Abbasqulu Ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə və dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev kimi görkəmli şəxsiyyətlərin fəaliyyət və fikirləri həlledici rol oynamalıdır.

"Hər bir millətin mədəni tərəqqisi məktəblə, məktəbin tərəqqisi isə müəllimlərlə bağlıdır". Bu fikir xalqımızın görkəmli maarifləndirici nəslinin böyük nümayəndəsi Nəriman Nərimanova aiddir. Müəllimlər ziyalı adına layiq olan bu müqəddəs peşə adamları özlərinə məxsus nəcib keyfiyyətləri, zəngin mənəvi aləmlərini şəxsiyyətlərində, müdrik əməllərində daim təcəssüm etdirirlər. Məktəbin və pedaqoji mühitin cəmiyyətdə rolu böyükdür, bu gün bütöv şəxsiyyət probleminin həlli məhz məktəbdən, tədris sistemindən bilavasitə asılıdır.

Məqsəd verilən biliyin keyfiyyətini artırmaqla yanaşı, daxili mənəvi mədəniyyətin və insani kamilliyin səviyyəsini də yüksəltməkdir. Müəllim uşaqlara ilk növbədə vətəni sevməyi, torpağa sədaqəti, qanunların aliliyinə hörmət etməyi, təmiz və pak duyğularla yaşamağı öyrətməlidir.

Gənclərin hər sözündə, əməlində səmimilik, mənəviyyat probleminə həssas, qayğıkeş münasibət, mübarizlik, quruculuq ehtirası olmalıdır. Xüsusilə də orta məktəblərdə gənclərin çağırışaqədərki hazırlığı

dərslərində şagirdlərə Azərbaycan Silahlı Qüvvələri haqqında dolğun məlumat vermək zəruridir.

Müəllim bu dərslərdə şagirdlərin zəruri hərbi nizamnamə qaydalarını mənimsəmələrinə, ordu həyatı ilə tanışlıqlarına, habelə gənclərin fiziki və psixoloji hərbi xidmətə hazırlanması işinə xüsusi diqqət yetirməli, onların arasında ölkənin hərbi məktəblərində təhsil almaq istəyənlərin, yəni namizədlərin seçilməsi istiqamətində güclü iş aparmalıdır.

Hər bir müəllim peşəkarlığı ilə yüksək mənəvi-əxlaqi keyfiyyətlərin zirvəsinə qalxmaqla şagirdlərinin idealına çevrilə billər. Yalnız bu zaman müəllim-şagird münasibətlərində vətənpərvərlik tərbiyəsində istənilən keyfiyyət əldə edilə bilər.

Bugünkü müstəqilliyimiz uğrunda vətənpərvər oğullarımız illərlə mübarizə aparmış, minlərlə igidlər bu yolda şəhid olmuşlar. Bu istiqamətdə orta məktəblərdə Azərbaycan dövlətinin müstəqilliyinin daimiliyinə inam hissi formalaşdırılmalıdır.

Azərbaycan xalqının milli ideologiyasına sədaqət, milli dəyərlərə hörmət, öz ana dilini səlis bilərək onun nəsillərə yüksək səviyyədə ötürülməsinə çalışmaq, millətin layiqli nümayəndəsi olmaq üçün yüksək intellektual səviyyəyə malik olan gənclərin yetişdirilməsi vətənpərvərlik tərbiyəsinin istiqamətlərindəndir.

Vətən sevgisi, vətənpərvərlik hər bir kəsin borcudur. Vətən hesab edilən torpağın hər bir vətəndaşı bu borcu öz qabiliyyəti və qüvvəsi dairəsində yerinə yetirməlidir.

Şagirdlərlə daha çox hərbi iş, hərbi qulluqçular haqqında söhbət aparılmalıdır. Onlar bilməlidirlər ki, gələcəkdə hərbiçi olsalar, qarşılarında hansı mühüm vəzifələr durur.

Hərbi qulluqçu vətənin silahlı müdafiəçisidir. Digər vətənpərvərlərdən daha çox hərbi qulluqçular hər an Azərbaycan Respublikasının silahlı müdafiəsinə hazır olmalı, lazım gəldikdə respublikamızı müdafiə etmək onlara həvalə olunmalıdır.

Əgər bugünkü şagird vətənpərvərdirsə, o, gələcəkdə hərbi qulluqçuya aid olan keyfiyyətlərə daha çox malik ola bilər. Şagirdlərə vətənpərvərlik tərbiyəsi, internet, tədbirlər, musiqilər, muğamlar, hərbi-vətənpərvərlik tədbirləri vasitəsilə aşılanmalıdır ki, o, Vətəni yalnız şəxsi rifahı üçün, özünə faydalı olduğu və ya hər hansı bir imtiyaz üçün deyil, məhz özünün vətəni, doğma torpağı olduğu üçün sevsin.

Vətənpərvər vətəni şüurlu surətdə sevən, hər an onun müdafiəsinə qalxmağa, Vətən naminə istənilən çətinliklərə dözməyə və fədakarlığa hazır olan insandır.

Vətənpərvərlik- Vətən müdafiəçisinin ən başlıca keyfiyyətidir. Bu keyfiyyətə malik olmayan hallarda o, sadəcə bir muzdluya çevrilə bilər. Məhz məktəb partası arxasına keçdiyi ilk gündən müxtəlif üsul və metodlarla yuxarıda sadaladığımız keyfiyyətlərə malik şagirdlər tərbiyə etmək məktəb qarşısında duran əsaslı vəzifələrdən biri sayılır. Məktəblərdə tez-tez hərbi qulluqçularla görüşlərin keçirilməsi sonda öz bəhrəsini verir. Ayrı-ayrı siniflər arasında hərbi-vətənpərvərlik yarışlarının təşkil olunması şagirdlərin formalaşmasında öz müsbət nəticələrini verir.

Hərbi-idman oyunlarının təşkil olunması məktəblilərdə vətənpərvərlik hissinin daha da güclənməsinə, vətən sevgisinə daha çox təkan verir. Bütün tədbirlər kompleks halda uşaqlarda fədakarlıqla xidmət etmək, qanını, hətta canını da vətən yolunda əsirgəməmək hisslərini tərbiyə edir. Şagirdlərdə mənəvi xüsusiyyətlər, daxili, əxlaqi məziyyətlər, özünəhörmət kimi hisslər formalaşdırır.

Müstəqilliyimiz uğrunda canlarından keçən 20 Yanvar şəhidləri, torpaqlarımız uğrunda canlarından keçən vətənpərvər oğullarımız hər zaman məktəblərdə şagirlər üçün canlı bir örnək olmalıdır.

Vətən uğrunda düşmənə layiqli cəza verən Mübariz İbrahimovun şücaəti əsl vətənpərvərlik nümunəsi, şəhidlik zirvəsidir.

**Sonda fikirlərimizi yekunlaşdıraraq deyə bilərik ki, vətənpərvərlik mövzusu hər zaman aktualdır və şagirdlər bu mövzuya daha çox maraq gösrərirlər.**

**Samirə VƏLİYEVA,**
*Nizami rayonundakı*
*"Zəngi" litseyinin müəllimi*

Bakı şəhəri

## Ədəbiyyat

1. H.Ocaqov. Gənclərin çağrışaqədərki hazırlığı (Dərslik). B. "Aspoliqrof" - 2007.
2. U.Ələkbərov, B.Əliyev, Ə.Ağayev, A.Musayev, K.Əzimov, O.Sultanov, N.Nəcəfov, Ə.Qocayev, R.Xəlilov, M.Vəliyev. İnsan və cəmiyyət. B. "Aspoliqrof" - 2006.
3. Z.Qaralov. İdeologiya və mənəviyyat. B. "Hüquq ədəbiyyatı" - 2008.